*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə* yerli təşkilatlar tərəfindən hesabat ayından sonrakı ayın 10-dək təqdim olunan hesabat forması [5]

Hara göndərilir ____________________________________________________
____________________________________________________
____________________________________________________
təşkilatın adı, ünvanı
Göndərən ____________________________________________________
____________________________________________________
təşkilatın adı, ünvanı

**Heyvanların karantin xəstəliklərinin hesabatı**
**_______________ 200__-ci il**

| Kodlar | Xəstəliyin adı | Heyvanın növü | Qeyri-sağlam məntəqədə həssas heyvanların sayı | Hesabat dövründə | | | Profilaktik tədbirlər | | Xəstə heyvanların aqibəti | | Hesabat dövrünün sonuna qalıb | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | aşkar edilən qeyri-sağlam məntəqə | neçə baş xəstələnib | neçə baş ölüb | Pey-vəndləmə | dezinfeksiya, monitorinq və s. | məhv edilib | kəsilib | cəmi, qeyri-sağlam məntəqələr | neçə baş xəstə |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

İcraçının soyadı və telefon nömrəsi ____________________ İmza _______________
Tarix _______________________

Forma vet 1A
Rüblük
*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə* yerli təşkilatlar tərəfindən hesabat ayından sonrakı ayın 10-dək təqdim olunan hesabat forması

Hara göndərilir ____________________________________________________
____________________________________________________
____________________________________________________
yerli təşkilatın adı, ünvanı
Göndərən ____________________________________________________
____________________________________________________
təşkilatın adı, ünvanı

**Epizootiya əleyhinə tədbirlərin hesabatı**
**_______________ 200__-ci il**
**1. Diaqnostik müayinə**

| Kodlar | Müayinənin adı | Heyvanın növü | Müayinə edilmişdir (baş) | | Onlardan müsbət reaksiya vermişdir, (baş) | | Qeyd |
|---|---|---|---|---|---|---|---|
| | | | cəmi | o cümlədən, özəl sektorda | cəmi | o cümlədən, özəl sektorda | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

2. Müalicə-profilaktika və peyvəndləmə tədbirləri

| Kodlar | Xəstəliyin adı | Tədbirin adı | Heyvanın növü | Tədbir aparılmışdır (baş) | | Qeyd |
|---|---|---|---|---|---|---|
| | | | | cəmi | o cümlədən, özəl sektorda | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

3. Baytarlıq-sanitariya tədbirləri

| Kodlar | Tədbirin adı | Xəstəliyin adı | Ərazi, ferma, heyvandarlıq binası işlənmişdir | | Qeyd |
|---|---|---|---|---|---|
| | | | obyektin sayı | kv.m | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | Dezinfeksiya: | | | | |
| | a) profilaktik | | | | |
| | b) məcburi | | | | |
| | Dezinseksiya | | | | |
| | Deratizasiya | | | | |

____________________ ____________________ ____________________
tarix vəzifə tarix
______________________________
İcraçının soyadı və telefon nömrəsi

Forma vet-2
Rüblük
*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə* yerli təşkilatlar tərəfindən hesabat ayından sonrakı ayın 10-dək təqdim olunan hesabat forması

Hara göndərilir ____________________________________________________
____________________________________________________
____________________________________________________
təşkilatın adı, ünvanı
Göndərən ____________________________________________________
____________________________________________________
təşkilatın adı, ünvanı

**Yoluxmayan heyvan xəstəliklərinin hesabatı**
**_______________ 200__-ci il**

| Göstəricinin adı | Kod | İlkin qeydə alınmış xəstə heyvan, baş | | | | İlkin qeydə alınmış xəstə heyvanlardan məcburi kəsilmiş, yaxud ölmüşdür, baş | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Iri-buynuzlu | Xırda-buynuzlu | donuz | at | iribuynuzlu | | xırdabuynuzlu | | donuz | | at | |
| | | | | | | ölmüş | məcburi kəsilmiş | ölmüş | məcburi kəsilmiş | ölmüş | məcburi kəsilmiş | ölmüş | məcburi kəsilmiş |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. Cəmi sektorlarda | 01 | | | | | | | | | | | | |
| o cümlədən, özəl sektorda | 02 | | | | | | | | | | | | |
| onlardan — cavanlar | 03 | | | | | | | | | | | | |
| 2. Özəl sektorda xəstə heyvan | 04 | | | | | | | | | | | | |
| mədə-bağırsaq xəstəlikləri, cəmi | 05 | | | | | | | | | | | | |
| onlardan — cavanlar | 06 | | | | | | | | | | | | |
| tənəffüs orqanlarının xəstəlikləri, cəmi | 07 | | | | | | | | | | | | |
| onlardan — cavanlar | 08 | | | | | | | | | | | | |
| maddələr mübadiləsinin xəstəliyi, cəmi | 09 | | | | | | | | | | | | |
| mastit, cəmi | 10 | | | | | | | | | | | | |
| cinsiyyət orqanlarının xəstəliyi, cəmi | 11 | | | | | | | | | | | | |
| zədələnmə, cəmi | 12 | | | | | | | | | | | | |
| zəhərlənmə, cəmi | 13 | | | | | | | | | | | | |
| sair xəstəliklər | 14 | | | | | | | | | | | | |

Tarix ______________________________
İcraçının soyadı və telefon nömrəsi ______________________
Rəhbər __________________________ İmza _____________________

Forma vet-3
Rüblük

*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi*nə balıqçılıq təsərrüfatlarının baytarlıq mütəxəssisləri və ya baytarlıq təşkilatları tərəfindən hesabat rübündən sonrakı ayın 5-dək təqdim olunan hesabat forması

## Balıqların və digər *su bioresurslarının* xəstəlikləri haqqında Hesabat[6]

**1. Ümumi məlumatlar**

| Müəssisə | Sətrin nömrəsi | Təsərrüfatların sayı | Yoluxucu xəstəliklərə görə qeyri-sağlam təsərrüfatlar | Epizootoloji müayinələr | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | | | | | |
| | | | | | |
| | | | | | |

Mədəni su təsərrüfatları 01
Balıq istehsal edilən su hövzələri 02

2. Qeyri-sağlam məntəqələr və baytarlıq tədbirləri haqqında məlumatlar

| Xəstəlik | Xəstəliyin kodu | Qeyri-sağlam aşkar edilib | | Qalıq qeyri-sağlam | | Ölüb (sayı) | Balıqlar və digər *su bioresurslarının* işlənməsi, (sayı) | Dezinfeksiya | | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | balıqçılıq təsərrüfatları | balıqyetişdirmə gölləri | balıqçılıq təsərrüfatları | balıqyetişdirmə gölləri | | | su hövzələri | sahəsi (ha) | |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | C |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

İzahat məktubu __________ vərəqdə əlavə edilir.
«___» ____________ 200___ il
İcraçının soyadı və telefon nömrəsi _______________

Rəhbər _____________________ İmza ___________________

Forma vet-4
Rüblük

Rayon diaqnostika mərkəzləri və zona baytarlıq laboratoriyaları tərəfindən hesabat rübündən sonrakı ayın 5-dək Respublika Baytarlıq Laboratoriyasına təqdim olunan hesabat forması

## Dövlət baytarlıq laboratoriyasında görülən işlərin hesabatı

| Xəstəliklərin adı, heyvanların növü, müayinə materialı, göstəricilər | Xəstəliklərin kodu | Materialın miqdarı | Müayinə aparılmışdır | | | |
|---|---|---|---|---|---|---|
| | | | patoanatomik | mikroskopiki | | bakterioloji |
| | | | | işıqla | lüminessent | |
| A | B | 1 | 2 | 3 | 4 | 5 |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

davamı üfüqi

| Müayinə aparılmışdır | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| virusoloji | | | | Bioloji | seroloji | | | | | | | | | | histo-loji | hema-toloji | kopro-loji | kim-yəvi | biokim-yəvi | müsbət nəticə alın-mışdır | Qeyd |
| immuno-ferment analizi | polimeraz zəncirvari reaksiya (PZR) | toyuq embri-onu (TE) | hüceyrə kul-turası (HK) | | aqlüti-nasiya reaksiyası (AR), süd halqə reaksiyası (SHR) | komple-mentin birləşmə reaksiyası (KVR) | komple-mentin uzun birləşmə reaksiyası (KUBR) | rozben-qal sınağı | diffuz prisipi-tasiya reaksiyası (DPR) | neytral-laşma reaksiyası (NR) | dolayı hemoaqlüti-nasiya reaksiyası (DHAR) | hemoaqlüti-nasiyanın ləngimə reaksiyası (HALR) | diffuz hemoaqlü-tinasiya reaksiyası (DHAR) | digər reaksiyalar | | | | | | | |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |

«____» _________________ 200___ il
İcraçının soyadı və telefon nömrəsi ______________________

Rəhbər ______________________ İmza ___________________

Forma vet-5
Rüblük

*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi*nə yerli təşkilatlar tərəfindən hesabat rübündən sonrakı ayın 5-dək olunan hesabat forması

Hara göndərilir ____________________________________________________
______________________________________________________________
______________________________________________________________
təşkilatın adı, ünvanı
Göndərən _________________________________________________________
______________________________________________________________
təşkilatın adı, ünvanı

**Baytarlıq-sanitariya ekspertiza laboratoriyalarında, hüquqi, yaxud fiziki şəxslərə məxsus kəsim məntəqələrində, ət kombinatlarında, ət və quş emalı müəssisələrində, quş fabriklərində baytarlıq-sanitariya nəzarəti haqqında**
**Hesabat**
**_________________________ 200 ___-ci il**

**1. Kəsim məntəqələrində heyvanların kəsimqabağı müayinəsi və kəsimdən sonra baytarlıq-sanitariya ekspertizası**

| Heyvanların müayinəsi və xəstəliklərin adı | Kod | İribuynuzlu heyvan | Qoyun və keçi | Donuz | At, maral, dəvə | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1. Baxılmışdır, cəmi (baş) | 01 | | | | | |
| o cümlədən, kəsim məntəqələrində | 02 | | | | | |
| 2. Aşkar edilmiş xəstəlikləri: | | | | | | |
| qarayara | 03 | | | | | |
| vərəm | 04 | | | | | |
| bruselyoz | 05 | | | | | |
| salmonelyoz | 06 | | | | | |
| leykoz | 07 | | | | | |
| finnoz | 08 | | | | | |
| trixinellyoz | 09 | | | | | |
| digər infeksion xəstəliklər | 10 | | | | | |
| digər invazion xəstəliklər | 11 | | | | | |
| 3. Zərərsizləşdirilməyə göndərilmişdir (kq-la) | 12 | | | | | |
| 4. Utilə göndərilmişdir (kq-la) | 13 | | | | | |

**2. Ət emalı müəssisələrində heyvanların sayı, kəsimqabağı vəziyyəti və kəsimdən sonrakı baytarlıq-sanitariya ekspertizasının nəticələri**

| Göstəricilər | Kod | İribuynuzlu | Donuz | Xırdabuynuzlu | At, dəvə, maral | Quş | Dovşan | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 1. Heyvanların qəbulu və müayinəsi | 14 | | | | | | | |
| 2. Xəstəliklər: | | | | | | | | |
| bruselyoz | 15 | | | | | | | |
| vərəm | 16 | | | | | | | |
| dabaq | 17 | | | | | x | x | |
| donuzların taunu | 18 | x | | x | x | x | x | |
| leykoz | 19 | | | | | | | |
| digər yoluxucu xəstəliklər | 20 | | | | | | | |
| yoluxmayan xəstəliklər | 21 | | | | | | | |
| 3. Nəql edilən zaman ölüb | 22 | | | | | | | |
| 4. Müəssisədə ölüb | 23 | | | | | | | |
| 5. Sanitar kəsimə verilib | 24 | | | | | | | |
| 6. Xəstəlik aşkar edilib: | | | | | | | | |
| qarayara | 25 | | | | | | | |
| vərəm | 26 | | | | | | | |
| onlardan utilə verilib (cəmdək) | 27 | | | | | | | |
| salmonellyoz | 28 | | | | | | | |
| dabaq | 29 | | | | | x | x | |
| leykoz | 30 | | | | | | x | |
| Finnoz (Sistiserkoz) | 31 | | | | | x | x | |
| exinokokkoz | 32 | | | | | x | x | |
| fasselyoz | 33 | | | | | | | |
| dikroselioz | 34 | | | | | | | |
| trixinelyoz | 35 | x | | x | x | x | x | |
| diktiokaulyoz | 36 | | | | | | | |
| digər infeksion xəstəliklər | 37 | | | | | | | |
| digər invasion xəstəliklər | 38 | | | | | | | |
| yoluxmayan xəstəliklər | 39 | | | | | | | |
| 7. Ət göndərilib: | | | | | | | | |
| zərərsizləşdirilməyə (kq-la) | 40 | | | | | | | |
| utilə (kq-la) | 41 | | | | | | | |
| 8. İçalat göndərilib: | | | | | | | | |
| zərərsizləşdirilməyə (kq-la) | 42 | | | | | | | |
| utilə (kq-la) | 43 | | | | | | | |
| 9. Təsərrüfatlardan ət qəbul edilib (kq) | 44 | | | | | | | |
| o cümlədən, zərərsizləşdirilib | 45 | | | | | | | |
| utilə verilib (kq-la) | 46 | | | | | | | |
| 10. Leykoza görə utilə verilib (cəmdək) | 47 | | | | | | | |

**3. Bazarlarda, ticarət obyektlərində və yarmarkalarda ət, süd və digər məhsulların baytarlıq-sanitariya ekspertizası**

| Göstəricilər | Kod | İribuynuzlu heyvanlar | Donuzlar | Xırdabuynuzlu heyvanlar | Digər növ heyvanlar | Yumurtalar | Süd və süd məhsulları | Digər məhsullar |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| Müayinə edilmişdir (ekspertiza) | 48 | | | | | | | |
| Laborator müayinə | 49 | | | | | | | |
| Xəstəlik aşkar olunub: | | | | | | | | |
| qarayara | 50 | | | | | | | |
| vərəm | 51 | | | | | | | |
| salmonellyoz | 52 | | | | | | | |
| finnoz | 53 | | | | | | | |
| trixinelyoz | 54 | | | | | | | |
| exinokokkoz | 55 | | | | | | | |
| fasselyoz | 56 | | | | | | | |
| digər infeksion xəstəliklər | 57 | | | | | | | |
| digər invazion xəstəliklər | 58 | | | | | | | |
| zərərsizləşdirilməyə göndərilmişdir (kq-la) | 59 | | | | | | | |
| utilə göndərilmişdir (kq-la) | 60 | | | | | | | |

Aydınlaşdırıcı izahat ______________ vərəqlə əlavə edilib.

Tarix _______________________ İmza _______________________________

İcraçının soyadı və telefon nömrəsi _____________________________________

Rəhbər _______________________ İmza _______________________________

Forma vet-6
Rüblük

*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi*nə nəqliyyat baytarlıq nəzarəti və dövlət sərhədinin buraxılış məntəqələri tərəfindən hesabat rübündən sonrakı ayın 5-dək təqdim edilən hesabat forması [7]

**Heyvanların, heyvan mənşəli məhsul və xammalın idxalı, ixracı və daşınması zamanı baytarlıq nəzarəti haqqında**
**Hesabat**
**1. İdxal edilən daşınmalar**

| Əməliyyat | Əməliyyatın kodu | Heyvanın növü, məhsul, xammal | Sətir nömrəsi | Dəmiryol nəqliyyatı | | Avtomobil nəqliyyatı | | Hava nəqliyyatı | | Su nəqliyyatı | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |

Yükləmə 1
Boşaltma 2
Nəqletmə 3

**2. İxrac edilən daşınmalar**

| Əməliyyat | Əməliyyatın kodu | Heyvanın növü, məhsul, xammal | Sətir nömrəsi | Dəmiryol nəqliyyatı | | Avtomobil nəqliyyatı | | Hava nəqliyyatı | | Su nəqliyyatı | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |

Yükləmə 1
Boşaltma 2
Nəqletmə 3

**3. Ölkələrarası daşınmalar**

| Əməliyyat | Əməliyyatın kodu | Heyvanın növü, məhsul xammal | Sətir nömrəsi | Dəmiryol nəqliyyatı | | Avtomobil nəqliyyatı | | Hava nəqliyyatı | | Su nəqliyyatı | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır | baxılmışdır | saxlanmışdır |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |

Yükləmə 1
Boşaltma 2
Nəqletmə 3

«___» ____________ 200__il
İcraçının soyadı və telefon nömrəsi ___________________________________

Rəhbər _____________________ İmza _____________________________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 22 may tarixli 80 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Özəl baytarlıq *xidməti* müəssisələri tərəfindən baytarlıq tədbirlərinin yerinə yetirilməsi barədə uçotun aparılması, onların xidmət etdiyi hüquqi və fiziki şəxslərə, *Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin* yerli bölmələrinə hesabatların təqdim edilməsi**[8]

**QAYDALARI**

## l. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanının 1.55-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və özəl baytarlıq *xidməti* müəssisələri tərəfindən baytarlıq tədbirlərinin yerinə yetirilməsi barədə uçotun aparılması, onların xidmət etdiyi hüquqi və fiziki şəxslərə, *Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin* yerli bölmələrinə hesabatların təqdim edilməsi yollarını tənzimləyir.[9]

~~1.2. Özəl baytarlıq təbabəti müəssisələri (bundan sonra-müəssisə) baytarlıq təbabəti fəaliyyəti ilə məşğul olmaq üçün Dövlət Baytarlıq Xidmətinin müvafiq ərazi bölməsində uçota durduqdan sonra fəaliyyət göstərir.~~ [10]

## 2. MÜƏSSİSƏ TƏRƏFİNDƏN BAYTARLIQ TƏDBİRLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ BARƏDƏ UÇOTUN APARILMASI

2.1. Müəssisə baytarlıq və baytarlıq-sanitariya tədbirlərinin təyinatı üzrə qeydiyyatını səhifələri nömrələnmiş, qaytanlanmış və *Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin* dövlət baytarlıq müfəttişlərinin möhürü ilə təsdiqlənmiş xüsusi kitablarda aparır.[11]

2.2. Müəssisədə baytarlıq tədbirlərinin aparılması haqqında istifadə olunmuş xüsusi qeydiyyat kitabları 5 il müddətinə, müəssisəyə xidmət edən hüquqi və yaxud fiziki şəxsdə saxlanılır.

2.3. Müəssisə tərəfindən baytarlıq-sanitariya tədbirləri ilə əlaqədar müvafiq sənədlər (aktlar, arayışlar) tərtib edilir.

## 3. MÜƏSSİSƏ TƏRƏFİNDƏN HESABATLARIN TƏQDİM EDİLMƏSİ

3.1. Müəssisə xidmət etdiyi hüquqi və yaxud fiziki şəxsə obyektin epizootoloji vəziyyəti, dövlət baytarlıq nəzarətində olan yüklərin baytarlıq - sanitariya tələblərinə uyğunluğu haqqında müvafiq hesabatlar verir.

3.2. Müəssisə qanunvericiliklə təsdiq edilmiş dövlət nümunəvi baytarlıq uçot və hesabat formalarına uyğun olaraq hesabat dövründən sonrakı ayın 3-nə qədər *Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin* yerli bölmələrinə hesabat təqdim edir.[12]

3.3. Obyektdə yoluxucu xəstəliklər, zəhərlənmə və s. fövqəladə vəziyyətlər yarandığı hallarda müəssisə obyektin məxsus olduğu hüquqi, yaxud fiziki şəxsə və *Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin* yerli bölməsinə arayış formasında məlumatlar təqdim edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 22 may tarixli 80 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasında dövriyyəyə buraxılan baytarlıq preparatlarına müvafiq sertifikatın verilməsi, markalanması, qablaşdırılması, müşayiətedici sənədlərində və ya istifadə təlimatlarında baytarlıq təyinatlı olmasının göstərilməsi**

**QAYDASI**

## 1. ÜMUMİ MÜDDƏA

Bu Qayda "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanının 1.59-cu bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və Azərbaycan Respublikasında dövriyyəyə buraxılan baytarlıq preparatlarına müvafiq sertifikatın verilməsi, markalanması, qablaşdırılması, müşayiətedici sənədlərində və ya istifadə təlimatlarında baytarlıq təyinatlı olmasının göstərilməsi istiqamətlərini müəyyən edir.

## 2. PREPARATLARIN QABLAŞDIRILMASI

2.1, Preparatların qablaşdırılması preparata aid normativ texniki sənədlərin tələblərinə uyğun olaraq yerinə yetirilir.
2.2. Preparat qablaşdırılacaq qablar preparatın keyfiyyətinə mənfi təsir göstərməməli və onun stabilliyini təmin etməlidir.
2.3. İşıq təsirindən qorunmalı olan və şüşə qablara qablaşdırılacaq preparatlar narıncı və ya qonur rəngli şüşə qablara qablaşdırılmalıdır.
2.4. Nəmlikdən qorunmalı olan preparatlar nəm keçirməyən qablara qablaşdırılmalı və hermetik bağlanmalıdır.
2.5. Şüşə qablara doldurulmuş preparatlar nəqliyyat qablarına (qutulara) yığılarkən, şüşələrin sınmaması üçün onlar yumşaq materiala bükülərək kip şəkildə yerləşdirilməlidir.

## 3. PREPARATLARIN MARKALANMASI

3.1. Preparat doldurulmuş qabların üzərində preparata aid normativ texniki sənədlərin tələblərinə müvafiq olaraq markalanma (nişanlanma) aparılır.
3.2. Preparat doldurulmuş qablar üzərində markalanlma etiket yapışdırmaqla, basmaqəlib üsulu və ya çap üsulu ilə yerinə yetirilir.
3.3. Preparat doldurulmuş qab üzərində aparılmış markalanmada (nişanlanmada) aşağıdakı məlumatlar verilməlidir:
istehsalçı müəssisənin adı, ünvanı, əmtəə nişanı;
preparatın adı və miqdarı;
növü və tərkibi;
hazırlanma tarixi;
istifadə sahəsi və qaydaları;
seriya (partiya) nömrəsi;
yararlılıq müddəti;
saxlanma şəraiti;
baytarlıq təyinatlı olması;
normativ sənədlərdə tələb olunan digər məlumatlar.

## 4. BAYTARLIQ PREPARATLARININ SERTİFİKATLAŞDIRILMASI

4.1. Baytarlıq preparatlarının dövlət reyestrində qeydə alınmış xarici baytarlıq preparatlarının hər bir yeni seriyaları (partiyaları) müəyyən edilmiş qaydada ekspertizadan keçirildikdən sonra baytarlıq normativlərinin tələblərinə cavab verdikləri halda onların tətbiqinə icazə verilir.

4.2. İstehsalçı müəssisədə istehsal olunan baytarlıq preparatlarının hər bir seriyası (partiyası) müəssisənin keyfiyyətə nəzarət xidməti tərəfindən normativ sənədlərin tələblərinə müvafiq olaraq sınaqdan keçirilməlidir.

4.3. Sınağın keçirilməsi üzrə aparılan laborator analizlərin nəticələri səhifələri nömrələnmiş, qaytanlanmış, möhür və imza ilə təsdiqlənmiş xüsusi jurnalda qeyd edilir.

4.4. Sınaqdan keçirilmiş baytarlıq preparatlarının bütün göstəriciləri normativ sənədlərin tələblərinə cavab verdiyi halda preparatın həmin seriyasına aid keyfiyyət sertifikatı verilir.

4.5. Keyfiyyət sertifikatında preparatın adı, hazırlanma tarixi, seriya (partiya) nömrəsi, normativ sənədlərin adı, işarəsi və həmin sənədlərdə olan tələblər göstərilməlidir.

4.6. İdxal edilən baytarlıq preparatları keyfiyyət sertifikatı (analiz sertifikatı), malın mənşəyi haqqında şəhadətnamə və s. müşayiətedici sənədlər ilə təmin edilməlidir. Onların nümunələri nəzarət üçün Azərbaycan Dövlət Baytarlıq Preparatlarına Elmi Nəzarət İnstitutuna (bundan sonra-institut) göndərilməlidir.

4.7. İdxal edilən baytarlıq preparatlarının hər seriyasından nümunəgöndərmə qaydalarına riayət etməklə, iki nümunə keyfiyyət sertifikatı almaq üçün müşayiətedici sənədlər ilə birlikdə instituta göndərilir.

4.8. Baytarlıq preparatları AZS Milli sertifikatlaşdırma sisteminə uyğun olaraq sertifikatlaşdırılmalıdır.

## 5. PREPARATIN BAYTARLIQ TƏYİNATLI OLMASININ GÖSTƏRİLMƏSİ

5.1. Preparatın baytarlıq təyinatlı olması preparat qablaşdırılmış qabın üzərindəki markalanmada "baytarlıqda tətbiq edilmək üçün" və ya "baytarlıq üçün" sözləri yazılmaqla göstərilir.

5.2. Preparatın baytarlıq təyinatlı olması malmüşayiətedici sənədlərdə və preparatın istifadə təlimatlarında preparatın adından qabaq "baytarlıq preparatı" sözləri yazılmaqla göstərilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 22 may tarixli 80 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti

# QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanının 1.66-cı bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti istiqamətlərini tənzimləyir.

1.2. Azərbaycan Respublikasında mövcud olan, həmçinin elmi tədqiqatlar və heyvan xəstəliklərinin diaqnostikası nəticəsində və peyvənd vasitəsi hazırlanan zaman alınan mikroorqanizm və parazitar xəstəlik törədicilərinin ştammları baytarlıqda istifadə edilən və saxlanılan ştammların Milli Kolleksiyasında saxlanmalıdır.

1.3. Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyası Azərbaycan Respublikasının ərazisində mövcud olan, hər hansı bir məqsəd üçün ölkəyə gətirilən, habelə aparılan tədqiqat işləri nəticəsində heyvanların xəstəliklərinin diaqnostikası və xəstəliklərə qarşı mübarizədə istifadə edilən bioloji preparatlar hazırlanan epizootik və istehsalat ştammlarının, eləcə də həmin bioloji preparatların keyfiyyətinə nəzarət ştammlannın qorunub saxlanması məqsədilə yaradılır.

1.4. Hər hansı bir mikroorqanizm və parazitar xəstəliklər törədiciləri ştammlarının Milli Kolleksiyada saxlanmasına *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik)* razılıq verməlidir. [13]

1.5. Mikroorqanizm və parazitar xəstəliklərin törədicilərinin ştammlarının Milli Kolleksiyasını yaratmaq üçün virusların, bakteriyaların, rikketsiyaların, helmint və qan parazitar xəstəliklərinin törədicilərindən istifadə edilir.

1.6. Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının laboratoriya otaqlarında xüsusi şərait yaradılmalı, onlarla işləyən mütəxəssislərin təhlükəsizliyi tam təmin edilməli, həmin ştammların təcrid olunmuş şəkildə saxlanması, kənara yayılmaması və yaşama qabiliyyətinin saxlanması üçün otaqlar lazımi avadanlıqlarla təchiz olunmalıdır.

1.7. Milli Kolleksiyada saxlanılan mikroorqanizmlərin, parazitar xəstəliklərin törədiciləri və keçiricilərinin ştammlarının saxlanma xərcləri dövlət büdcəsindən maliyyələşdirilir.

## 2. MİKROORQANİZM TÖRƏDİCİLƏRİ ŞTAMMLARININ KOLLEKSİYASININ TƏŞKİLİ

2.1. Mikroorqanizm törədiciləri ştammlannın kolleksiyası epizootik, istehsalat və vaksin ştammlarından təşkil edilir.

2.2. Patogen ştammların hər hansı bir yolla ölkə ərazisinə düşməsi və ya onların saxlandığı laboratoriyada müxtəlif səbəbdən kənara yayılması nəticəsində heyvanların sağlamlığına vuracağı ziyanın dərəcəsi Beynəlxalq Epizootik Büronun (BEB) "Quruda yaşayan heyvanların sanitar məcəlləsinə" uyğun olaraq müəyyən edilir.

2.3. Mikroorqanizm törədicilərinin bütün qrupları ilə iş aparmağa xüsusi biliyə malik olan yüksək hazırlıqlı mütəxəssislər cəlb edilirlər və zoonoz xəstəliklərin törədiciləri ilə işlədikdə, bu xəstəlik törədicilərindən qorunmaq üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq tələbləri nəzərə alınır.

2.4. Baytarlıqla bağlı elmi tədqiqat müəssisələrində, laboratoriyalarında əldə edilən mikroorqanizm törədiciləri ştammları hər hansı bir məqsəd üçün (diaqnoz qoyulması, vaksin və serum hazırlanması) istifadə edildikdən sonra *Agentliyə* rəsmi olaraq təhvil verilir. Mikroorqanizm ştammları törədicilərinin saxlanması *Agentlik* tərəfindən məqsədəmüvafiq hesab edilmədikdə, onlar avtoklavda zərərsizləşdirilir və bu barədə akt tərtib edilir. [14]

2.5. *Agentlik tərəfindən* Milli Kolleksiyanın bütün mikroorqanizm ştammlarının patogen xüsusiyyətlərinin qorunub saxlanmasını təşkil etmək və daxil olan ştammları qəbul edərkən sənədləşmələri aparmaq məqsədilə yüksək ixtisas hazırlığı olan məsul şəxs təyin edilir. [15]

2.6. Mikroorqanizm ştammlannın saxlanması və başqa yerə verilməsi, eləcə də epizootik ştammların və nadir ştammların diri halda əsas morfoloji və bioloji xüsusiyyətlərinin saxlanması məqsədilə Milli Kolleksiyada onların yaşama qabiliyyətini normal saxlamaq üçün müvafiq iş görülür və onların morfoloji və bioloji xüsusiyyətləri göstərilməklə hər birinə ayrılıqda pasport verilir.

2.7. Milli Kolleksiya əməkdaşlarının mikroorqanizm ştammlarını almağa ixtiyarı olan təşkilatlar və şəxslər istisna olmaqla, həmin ştamm haqqında, eləcə də onların bioloji xüsusiyyətləri barədə mətbuatda və ya *Əqli Mülkiyyət Agentliyinin* ixtiralar bülletenində məlumat nəşr edilməmişdən əvvəl hər hansı bir yerə məlumat vermək hüquqları yoxdur. [16]

## 3. PARAZİTAR XƏSTƏLİKLƏRİN TÖRƏDİCİLƏRİNİN MİLLİ KOLLEKSİYASININ YARADILMASI VƏ SAXLANMASI

3.1. Milli Kolleksiyada saxlamaq üçün respublika ərazisində uzun müddət müşahidə edilən və ya hər hansı bir elmi məqsəd üçün qanuni şəkildə xaricdən gətirilən protozoa, helmint xəstəliklərinin amilləri ştamm kimi, yaxma halında və ya xəstəlik keçiriciləri olan gənələrin orqanizmində saxlanılır.

3.2. Parazitar xəstəliklərdən olan teyleriozun törədicisinə yüksək hərarətöldürücü təsir etdiyindən, qurudularaq saxlanması mümkün olmadığından onu iri buynuzlu heyvanların orqanlarının və toxumalarının limfoid hüceyrələrində yetişdirdikdən sonra Milli Kolleksiyada maye azotda (mənfi 196°C-də), vaksin ştammı kimi, spiroxetoz törədicisini vaksin hazırlamaq məqsədilə dərin dondurulmuş vəziyyətdə saxlayırlar.

3.3. Parazitar xəstəliklərin törədiciləri müxtəlif morfoloji və bioloji xüsusiyyətlərinin öyrənilməsi və ona qarşı effektli dərman preparatları hazırlamaq məqsədilə yaxma şəklində, eyni zamanda, protozoa xəstəlikləri amilləri onların keçiriciləri olan gənələrin orqanizmində Milli Kolleksiyada otaq temperaturunda saxlanılır və vaxtaşırı təzələnir.

3.4. Helmint xəstəlikləri törədiciləri barədə lazımi elmi məlumatlar toplamaq və axtarışlar aparmaq məqsədilə onlar ayn-ayrı şüşə qablarda 40 faizli formaldehiddə saxlanması üçün rəsmi qaydada sənədləşdirilir və Milli Kolleksiyaya təhvil verilir.

## 4. MİLLİ KOLLEKSİYA YARATMAQ MƏQSƏDİLƏ MİKROORQANİZM VƏ PARAZİTAR XƏSTƏLİKLƏRİN TÖRƏDİCİLƏRİNİN ŞTAMMLARININ PASPORTLAŞDIRILMASI

4.1. Baytarlıq preparatları hazırlamaq məqsədilə (vaksinlər, anatoksinlər, bakteriofaqlar və diaqnostikumlar) epizootik və istehsalat ştammlannın, eyni zamanda heyvanlarda immuniteti öyrənmək üçün seçilmiş nəzarət ştammlarının pasportunda onların virulentlik dərəcəsi göstərilməlidir.

4.2. Virulentlik dərəcəsinə uyğun olmayan ştammlar vaksinlərin hazırlanması və onların keyfiyyətinin yoxlanılması üçün yararsız sayılırlar.

4.3. Bu ştammlara təbii halda həssas olan kənd təsərrüfatı və laboratoriya heyvanları, eləcə də onların əsas yoluxma yolları və üsulları, xəstəliyin inkubasiya dövrünün müddəti, habelə insan üçün təhlükəli olması, həmin ştammın durumu, onun konkret adı, morfoloji və bioloji xüsusiyyətləri, yetişdirilmə şəraiti, saxlanma vəziyyəti, yanaşma qabiliyyətinin öyrənildiyi üsulları və s. göstəriciləri pasportda öz əksini tapmalıdır.

4.4. Pasportda həmin ştammlardan hazırlanan vaksinlə peyvənd olunmuş heyvanlarda spesifik əks cisimlərin əmələgəlmə müddəti və əks cisimlərin titrləri uyğun olaraq onların müəyyənləşdirilməsi üçün istifadə edilən diaqnostik test üsulları seroloji xüsusiyyətləri ilə birlikdə hərtərəfli göstərilməlidir.

4.5. Milli Kolleksiya yaratmaq məqsədilə yalnız vaksin hazırlanmasında istifadə edilən teylerioz və spiroxetozun ştammları pasportlaşdırılır. Onların pasportlaşma prinsipləri mikroorqanizm ştammlarının pasportlaşdırılmasına uyğun aparılır.

## 5. MİKROORQANİZM ŞTAMMLARININ SAXLANMASI

5.1. Epizootik, istehsalat və nəzarət ştammları, bir qayda olaraq, qurudulmuş vəziyyətdə mənfi temperaturda saxlanmalıdır.

5.2. Epizootik ştammların nümunələri əldə olan təlimatlara uyğun olaraq ciddi nəzarət altında saxlanmalı və lazım gəldikdə onlardan vaksin və diaqnostikumlar hazırlamaq məqsədilə istifadə edilməlidir.

5.3. Milli Kolleksiya otaqları qurutma-soyuducu avadanlıqları ilə təmin edilir, soyuducu qurğular və mikroorqanizm ştammları saxlanan otaq onların saxlanma rejiminə nəzarət etmək üçün səs və işıq siqnalizasiyası ilə təmin edilməlidir. Milli Kolleksiyada mikroorqanizm ştammlarının dərin dondurulması məqsədilə orada mənfi temperatur yaradan soyuducu kamera və ehtiyat soyuducu olmalıdır.

5.4. Milli Kolleksiyada mikroorqanizm ştammlannın yararlılığına nəzarət məqsədilə vaxtaşırı olaraq onların aktivliyi yoxlanılır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 7 iyul 2008-ci il tarixli **151** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 673** )
2. 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 32**)
3. 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**)
4. 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227**)
5. 7 iyul 2015-ci il tarixli **255** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 28 iyul 2015-ci il, 159, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 886**)
6. 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**)

7. 18 dekabr 2018-ci il tarixli **538** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 dekabr 2018-ci il, 287 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2734)**

8. 29 iyun 2020-ci il tarixli **221** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 iyul 2020-ci il, 125 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 811** )

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**) ilə 1-ci hissədə "**təbabəti**" sözü "**xidməti**" sözü ilə və "**dövlət baytarlıq orqanlarının**" sözləri **"Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin** " sözləri ilə əvəz edilmişdir.

[2] 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227**) ilə "Dövlət nümunəvi baytarlıq uçot və hesabat sənədləri blanklarının Forması"nda (bütün hallarda) "**Dövlət Baytarlıq Xidmətinə**" sözləri "**Dövlət Baytarlıq Nəzarəti Xidmətinə**" sözləri ilə əvəz edilmişdir.

[3] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə 2-ci bənddə "Sərhəd baytarlıq nəzarəti məntəqələrində idxal, ixrac və tranzit heyvanların qəbulu və baxışının uçotu jurnalı Forma 28-vet'-də "**Sərhəd baytarlıq nəzarəti məntəqələrində**" sözləri "**Dövlət sərhədinin buraxılış məntəqələrində**" sözləri ilə əvəz edilmişdir.

[4] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə Sərhəd baytarlıq nəzarəti məntəqələrində idxal və ixrac edilən heyvan mənşəli məhsulların və xammalın, yem və yem əlavələrinin baxışının uçotu jurnalı Forma 29-vet"-də "**Sərhəd baytarlıq nəzarəti məntəqələrində**" sözləri "**Dövlət sərhədinin buraxılış məntəqələrində**" sözləri ilə əvəz edilmişdir.

[5] 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**) ilə "Dövlət nümunəvi baytarlıq uçot və hesabat sənədləri blanklarının Forması" üzrə ismin müvafiq hallarında "**Dövlət Baytarlıq Nəzarəti Xidməti**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

[6] 7 iyul 2015-ci il tarixli **255** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 28 iyul 2015-ci il, 159, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 886)** ilə "Forma vet-3. Balıqların və digər suda yaşayan heyvanların xəstəlikləri haqqında Hesabat"ın adında və 2-ci hissəsində "**suda yaşayan heyvanların**" sözləri "**su bioresurslarının**" sözləri ilə əvəz edilmişdir.

[7] 28 yanvar 2009-cu il tarixli **14** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 34**) ilə 3-cü bənddə "Forma vet-6"-da "**nəqliyyat və sərhəd baytarlıq nəzarəti məntəqələri**" sözləri "**nəqliyyat baytarlıq nəzarəti və dövlət sərhədinin buraxılış məntəqələri** " sözləri ilə əvəz edilmişdir.

[8] 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**) ilə "Özəl baytarlıq təbabəti müəssisələri tərəfindən baytarlıq tədbirlərinin yerinə yetirilməsi barədə uçotun aparılması, onların xidmət etdiyi hüquqi və fiziki şəxslərə, dövlət baytarlıq orqanlarının yerli bölmələrinə hesabatların təqdim edilməsi Qaydaları"nın adında "**təbabəti**" sözü "**xidməti**" sözü ilə və "**dövlət baytarlıq orqanlarının"** sözləri "**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin** " sözləri ilə əvəz edilmişdir.

[9] 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**) ilə "Özəl baytarlıq təbabəti müəssisələri tərəfindən baytarlıq tədbirlərinin yerinə yetirilməsi barədə uçotun aparılması, onların xidmət etdiyi hüquqi və fiziki şəxslərə, dövlət baytarlıq orqanlarının yerli bölmələrinə hesabatların təqdim edilməsi Qaydaları"nın 1.1-ci bəndində "**təbabəti**" sözü "**xidməti**" sözü ilə və "**dövlət baytarlıq orqanlarının**" sözləri "**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[10] 7 iyul 2008-ci il tarixli **151** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 673** ) ilə «Özəl baytarlıq təbabəti müəssisələri tərəfindən baytarlıq tədbirlərinin yerinə yetirilməsi barədə uçotun aparılması, onların xidmət etdiyi hüquqi və fiziki şəxslərə, dövlət baytarlıq orqanlarının yerli bölmələrinə hesabatların təqdim edilməsi Qaydaları»nın 1.2-ci bəndi çıxarılmışdır.

[11] 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227**) ilə "Özəl baytarlıq təbabəti müəssisələri tərəfindən baytarlıq tədbirlərinin yerinə yetirilməsi barədə uçotun aparılması, onların xidmət etdiyi hüquqi və fiziki şəxslərə, dövlət baytarlıq orqanlarının yerli bölmələrinə hesabatların təqdim edilməsi Qaydaları"nın 2.1-ci bəndində "**Dövlət Baytarlıq Xidmətinin**" sözləri "**Dövlət Baytarlıq Nəzarəti Xidmətinin**" sözləri ilə əvəz edilmişdir.

1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**) ilə "Özəl baytarlıq təbabəti müəssisələri tərəfindən baytarlıq tədbirlərinin yerinə yetirilməsi barədə uçotun aparılması, onların xidmət etdiyi hüquqi və fiziki şəxslərə, dövlət baytarlıq orqanlarının yerli bölmələrinə hesabatların təqdim edilməsi Qaydaları"nın 2.1-ci bəndində "**Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rayon (şəhər)**" sözləri "**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin** " sözləri ilə əvəz edilmişdir.

[12] 1 dekabr 2018-ci il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 dekabr 2018-ci il, 274 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2721**) ilə "Özəl baytarlıq təbabəti müəssisələri tərəfindən baytarlıq tədbirlərinin yerinə yetirilməsi barədə uçotun aparılması, onların xidmət etdiyi hüquqi və fiziki şəxslərə, dövlət baytarlıq orqanlarının yerli bölmələrinə hesabatların təqdim edilməsi Qaydaları"nın 3.2-ci bəndində "**dövlət baytarlıq orqanlarının**" sözləri və 3.3-cü bəndində "**dövlət baytarlıq orqanının**" sözləri "**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[13] 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227**) ilə "Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti Qaydaları"nın 1.4-cü bənddə **"Dövlət Baytarlıq Xidməti (bundan sonra - Dövlət Baytarlıq Xidməti)"** sözləri **"Dövlət Baytarlıq Nəzarəti Xidməti (bundan sonra - Dövlət Baytarlıq Nəzarəti Xidməti)"** sözləri ilə əvəz edilmişdir.

29 iyun 2020-ci il tarixli **221** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 iyul 2020-ci il, 125 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 811** ) ilə "Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti Qaydaları"nın 1.4-cü bəndində "**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti (bundan sonra – Dövlət Baytarlıq Nəzarəti Xidməti)"** sözləri "**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik)"** sözləri ilə əvəz edilmişdir.

[14] 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227**) ilə "Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti Qaydaları"nın 2.4-cü bənddə (hər iki halda) ismin müvafiq hallarında "**Dövlət Baytarlıq Xidməti**" sözləri ismin müvafiq hallarında "**Dövlət Baytarlıq Nəzarəti Xidməti**" sözləri ilə əvəz edilmişdir.

29 iyun 2020-ci il tarixli **221** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 iyul 2020-ci il, 125 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 811** ) ilə "Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti Qaydaları"nın 2.4-cü bəndin birinci cümləsində "**Dövlət Baytarlıq Nəzarəti Xidmətinin göstərişi ilə onun hərtərəfli öyrənilməsi və saxlanması üçün Azərbaycan Dövlət Baytarlıq Preparatlarına Elmi Nəzarət İnstitutuna (bundan sonra – institut**)" sözləri və ikinci cümləsində **"Dövlət Baytarlıq Nəzarəti Xidməti**" sözləri ismin müvafiq hallarında "**Agentlik**" sözü ilə əvəz edilmişdir.

[15] 29 iyun 2020-ci il tarixli **221** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 iyul 2020-ci il, 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 811**) ilə "Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti Qaydaları"nın 2.5-ci bəndində "**İnstitutda fəaliyyət göstərən** " sözləri "**Agentlik tərəfindən**" sözləri ilə əvəz edilmişdir.

[16] 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 01, maddə 32**) ilə təsdiq edilmiş "Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti Qaydaları"nın 2.7-ci bəndində **"Agentliyinin"** sözü **"Komitəsinin"** sözü ilə əvəz edilmişdir.

18 dekabr 2018-ci il tarixli **538** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 20 dekabr 2018-ci il, 287 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2734**) ilə "Mikroorqanizm və parazitar xəstəliklərin törədiciləri ştammlarının Milli Kolleksiyasının yaradılması və fəaliyyəti Qaydaları"nın 2.7-ci bəndində "**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin**" sözləri "**Əqli Mülkiyyət Agentliyinin** " sözləri ilə əvəz edilmişdir.